# AZƏRBAYCAN:

# Medianın hüquqi durumu

*2022, İLLİK ANALİZ*

Media Hüququ Qrupu

Media Hüququ Qrupu - *Azərbaycanda media azadlığı ilə bağlı qanunvericiliyi və təcrübəni qabaqcıl meyarlara uyğunlaşdırmaq, medianı və jurnalistləri qorumaq, ifadə azadlığı, eləcə də digər əsas hüquqların təşviqi sahəsində çalışan vətəndaş cəmiyyəti təşəbbüsüdür* www.mediarights.org; mediarightsaz@gmail.com

*Sənədi hazırladı: Xalid Agalı*

## *İ Ç İ N D Ə K İ L Ə R:*

1. KİBER MÜDAXİLƏ, HÜCUMLAR
2. PUBLİK BİLGİLƏRƏ ÇATIM
3. JURNALİSTLƏRƏ QARŞI FİZİKİ-PSİXOLOJİ TƏZYİQ-TƏHDİDLƏR, PEŞƏ FƏALİYYƏTİNƏ DİGƏR MANEƏLƏR
4. DEFAMASİYA (böhtan və təhqir) İLƏ BAĞLI MƏHKƏMƏ İŞLƏRİ, HƏBSDƏKİ JURNALİSTLƏR
5. MEDİA QANUNVERİCİLİYİ

*Media haqqında qanun*

*Media, ifadə azadlığı aspektindən qanundakı problemli tənzimləmələr*

*Jurnalist, jurnalist fəaliyyəti anlayışı ilə bağlı*

*Məzmunun tənzimlənməsi ilə bağlı*

*Media və jurnalistlərin vahid reyestrinin yaradılması ilə bağlı*

*Gizli çəkilişlərdən istifadə ilə bağlı*

*Qaynaqların qorunması ilə bağlı*

*Qanunun tətbiqi*

*Qanunun tətbiqinə başlanılmasının üzə çıxardığı problemlər: reyestrə daxil edilməyən media və jurnalistlər haqda*

*Media reyestrinin formalaşdırlması başa çatandan sonra gözlənilən təhlükələr haqda*

## *SƏNƏD HAQQINDA*

Bu Hesabat 2022-ci ildə Azərbaycanda media, jurnalistlərlə əlaqəli baş vermiş insidentlərin monitorinqinə, analizinə əsaslanır. Azərbaycanda il ərzində ümumilikdə 185-dən artıq belə insident qeydə alınıb. İnsindetlərlə bağlı məlumatlar mediada yayılan xəbərlərdən, insidentlərin iştirakçısı olan, hüquqi yardım üçün müraciət edən jurnalist və bloqçuların açıqlamalarından götürülüb.

Sənəd 5 bölmədən ibarətdir.

1-ci bölmədə internet resursları, jurnalistlər, mediada çalışanların 2022-ci ildə məruz qaldıqları kiber müdaxilələrdən, hücumlardan bəhs edilir.

2-ci bölmədə medianın publik bilgilərə çatımının durumu araşdırılıb.

3-cü bölmədə il ərzində jurnalistlərin üzləşdikləri fiziki – psixoloji təzyiq-təhdidlər, onların peşə fəaliyyətlərini yerinə yetirmələrinə digər maneələr şərh edilib.

4-cü bölmə media, jurnalistlərlə əlaqəli məhkəmə işləri haqdadır. Həmin bölmədə həbsdə olan jurnalistlərin işləri haqda da məlumat verilir.

"Media qanunvericiliyi" adlanan sonuncu bölmə 2022-ci ildə qüvvəyə minmiş yeni "Media haqqında" qanunun başlıca müddəaları şərh edilib. Sənəddə qanunun tətbiqinin media, ifadə azadlığı hüququ ilə bağlı ortaya çıxardığı, habelə, qarşıdakı mərhələdə üzə çıxacaq ehtimal olunan problemlərə də toxunulur.

# 1. KİBER MÜDAXİLƏ, HÜCUMLAR

İnternet resursları, jurnalistlər, mediada çalışanlar 2022-ci ildə də kiber məkanda insidentlərlə üzləşiblər. Müxalif Müsavat Partiyasına yaxın olan bastainfo.com resursunun həm interet saytı, həm də sosial media səhifələri bir neçə dəfə hücuma məruz qalıb. Müstəqil mövqeyi ilə seçilən «Toplum TV»-nin youtube səhifəsi də kiber hücumların hədəfində olub. Xaricdən yayılan "Turan" televiziya kanalı da haker hücumu ilə üzləşib. Kanalın rəhbəri Qənimət Zahidin bəyanatına görə, telekanalın serverləri dağıdılıb, materiallar silinib. TV-nin mütəxəssisləri serveri geri ala biliblər. 2022-ci ilin birinci yarısında Rusiyaya məxsus RİA-Novosti agentliyinin saytına giriş blok edilib. Bloklama RİA-Novosti-nin Azərbaycanla bağlı qanunla yayılması qadağan edilən materialları müntəzəm yayması ilə izah edilib.

Rusiya Federasiyasının tənzimləyici qurumu olan "Roskomnadzor" isə Azərbaycana aid olan rusdilli oxu.az, haqqin.az, minval.az saytlarına blok tətbiq edib. Dini təmayüllü saytlar olan interaztv.com və eastnews.org saytları da bloklanıb. Toplum TV sentyabrda yenidən kiberhücuma məruz qalıb. Bu medianın facebook səhifəsinə müdaxilə edilib, 26 mindən artıq izləyici, habelə, son 2 həftəyə aid videolar silinib. meclis.info saytının təsisçilərindən İmran Əliyev Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparıldığı zaman məcburi olaraq, sosial media hesablarına müdaxilə olunub.

Avqustda jurnalist Rasim Məmmədli-nin facebook-dakı profili oğurlanıb. Yeniavaz.com xəbər portalının redaktoru olan jurnalist həm də bir neçə Facebook səhifəsinin inzibatçısı idi. Jurnalist profilini geri ala bilib, ancaq həmin vaxt onun idarə etdiyi "Zəfəran" və "Qəmiş" səhifələri də oğurlanıb. 10 minlərlə izləyici kütləsi olan səhifələrdən biri silinib, digərini geri almaq mümkün olmayıb. Hazırda həmin səhifə dövlət qurumlarından birinin təşviqi üçün istifadə edilir. Araşdırma üçün müvafiq qurumlara şikayət olunub.

2022-ci ildə amerikan sosial media holdingi Meta Inc. rüblük hesabatlarından birində Azərbaycana məxsus kibercasus şəbəkəsini aşkar və ləğv etdiklərini bildirib. Sənəddə kibercasus qrupunun Azərbaycanın Daxili İşlər Nazirliyi tərəfindən koordinasiya edildiyi ifadə olunub. Sənədə görə, koordinasiya olunan onlayn kiberhücumların hədəfi vətəndaş cəmiyyəti fəalları, hüquq müdafiəçiləri, müxalif partiya və hərəkat üzvləri ilə yanaşı həm də həm də Azərbaycanda fəaliyyət göstərən jurnalistlər də olub. Ancaq nazirlik bunu təkzib edib. Daha əvvəl oxşar onlayn təhdidlər "Pegasus" araşdırması zamanı da üzə çıxmışdı. Həmin araşdırmada izlənildikləri bəlli olan jurnalistlərin araşdırma üçün şikayətləri effektiv olmayıb.

2022-ci ildə kiber məkanda baş verənlər hər hansı yeni tendensiyaları ortaya qoymayıb, əvvəlki illərdə nəzərə çarpan kiber hücumlar davam edib. Belə halların araşdırılması, günahkarların cəzalandırılması yönündə də hər hansı yeni gəlişmələr nəzərə çarpmır. İstər

“Pegasus” araşdırması zamanı izlənildikləri üzə çıxan jurnalistlərin araşdırma üçün dövlət qurumlarına müraciətləri, istərsə də konkret kiber hücuma məruz qalan jurnalistlərin, medialarin şikayətləri effektiv araşdırılmayıb. “Pegasus” araşdırması ilə bağlı jurnalistlər daxili müdafiə imkanları tükəndiyindən Avropa İnsan Haqlarına şikayət ediblər. Kiber hücuma məruz qalan medialardan Toplum TV-nin şikayəti də araşdırılmayıb. Araşdırmaların effektli olmaması barədə qeyd edilən işlərə müvafiq qurumların yanaşması ayrı-seçicidir. Məsələn, Toplum TV-yə kiber müdaxilə həmin medianın təsisçilərindən Ələsgər Məmmədlinin mobil telefonuna sms göndərilməsi, ancaq həmin sms-in başqaları tərəfindən görülməsi yolu ilə müdaxilə edilmişdi. Bu medianın hüquq mühafizə qurumlarına şikayəti araşdırlmamış qalıb. Ancaq başqa nümunədə araşdırma effektli olmuşdu – Teleqram şəbəkəsində şəxsi görüntülrəinin yayılması ilə şantaj edilən vətəndaşların şikayətləri qısa zamanda *araşdırılmışdı*. Teleqram-da şantaja yol verən bir neçə kanalın admini qısa zamanda saxlanılıb məsuliyyətə cəlb edilmişdi. Kiber məkanda hücuma məruz qalan heç bir müstəqil, tənqidçi media, jurnalistlərin araşdırma müraciətinə belə operativ və effektiv reaksiya göstərilməyib.

Həm 2022-ci ildə, həm də ondan əvvəlki illərdə kiber sferada baş verənlərin analizi bir neçə tapıntını üzə çıxarır. Kibercinayətkarlığa qarşı mübarizə qanunları yenilənmə, inkişaf tələb edir, ancaq mövcud normaların effketiv tətbiqi bu sahədəki problemlərin həlli istiqamətində xeyli yaxşı mənzərə yarada bilər. Azərbaycanın cinayət qanunvericiliyi kompyuter sisteminə qanunsuz daxil olma, məlumatları qanunsuz ələ keçirmə və müdaxilə etmə, kibercinayətlərin törədilməsi üçün vasitələrin dövriyyəsinə, habelə, şəxsi həyatın toxunulmazlığını pozan hərəkətlərə görə məsuliyyət müəyyən edir. Bu müddəalara azı 10 il əvvəl redaktə edilib, texnoloji inkişafın işığında onların daha da aydınlaşdırılması, dəqiləşdirilməsi ehtiyacı var. Həmin normaların hər kəsə münasibətdə bərabər əsaslarla tətbiqi yönündə addımların atılması da ciddi zərurətdir. Qeyd edilən zərurətlərin qarşılanmaması kibermək anda baş verən hücumların effektiv araşdırılmamasının başlıca səbəbidir. Fərdi məlumatların qorunmasını tənzimləyən qanunvericilik xeyli problemləri özündə ehtiva edir. Bu, xüsusilə fərdi məlumatları qorumalı olan mexanizmlərin effektli olmaması, bu mexanizmlərin şəxsi məlumatlardan dövlət orqanlarının rahat və özbaşına istifadəsinə geniş imkanlar yaratması ilə bağlıdır. Kiber təhlükələrdən qorunma, fərdi bilgilərin mühafizəsi ilə bağlı bilikliliyin yetərli səviyyədə olmaması da nəzərə çarpan əsas tendensiyalardandır.

# 2. PUBLİK BİLGİLƏRƏ ÇATIM

Peşə fəaliyyətini yerinə yetirən jurnalistlərin informasiya toplamalarına rəsmilər tərəfindən maneçilik yaradılması jurnalistlərin bu sahədə üzləşdikləri əsas problemlərdəndir. Bir ildə jurnalistlər 49 dəfədən çox belə insidentlə qarşılaşıblar. Jurnalist və bloqerlər Sevinc Vaqıfqızı, Ələkbər Azayev, Əminə Məmmədova, Əvəz Hafizli, Fatimə Mövlamlı, Sevinc Sadıqova, Günel Əliyeva, Vüsalə Nəciyeva, Təzəxan Mirələmli, Nurlan Qəhrəmanlı (Libre), Nərgiz Absalamova, Vüsalə Mikayıl, Nuray Kamal, Gülnaz Qəmbərli, Təbriz Mirzəyev, Dilarə Qəzənfərqızı polis əməkdaşları və digər rəsmilər tərəfindən saxlanılıb, onların çəkiliş aparmalarına imkan verilməyib. Insidentlərin hamısı Bakıda baş verib.

Açıq keçirilən məhkəmə proseslərindən bilgi toplanılması əsasən, tənqidi mövqeyi ilə seçilən media təmsilçiləri üçün problemlidir. Jurnalistlər Aytən Məmmədova, Elşən Balaxanski, Anar Məmmədov, Hacı Zeynalovun bir neçə dəfə məhkəmə proseslərindən informasiya toplamasına imkan verilməyib. Onlara hər hansı qanuni əsas göstərilməyib.

Sorğular vasitəsilə bilgi əldə edilməsi ciddi problemlidir. 12 ayda monitorinq altında olan 29 işdə publik bilgi sahibi olan dövlət qurumları, onlara göndərilmiş informasiya sorğularının heç birinə münasibətdə “İnformasiya əldə edilməsi haqqında” qanunun tələblərinə əməl etməyiblər. Sorğuların heç biri tam cavablandırılmayıb.

İnformasiya sorğusuna cavab verilməməsinin qanunsuzluğu bir neçə işdə məhkəmə qaydasında mübahisələndirilib. Onların heç birində məhkəmə qərarları jurnalistlərin xeyrinə olmayıb. Bəzi işlərdə məhkəməyə şikayət edildikdən və ya “İnformasiya əldə edilməsi haqqında” qanunun icrasına nəzarət edən Ombudsman-a müraciət edilməsindən sonra informasiya sahibləri onlardan istənilən informasiyaların bir qismini təqdim ediblər.

Jurnalistlərin informasiya əldə etmə imkanlarının analizi publik bilgilərə çatımda problemləri ortaya çıxarır. Bu sahəni tənzimləyən qanunvericilik açıqlıqla bağlı standartlara uyğundur. “İnformasiya əldə edilməsi haqqında” qanun jurnalistlərə publik bilgiləri sorğular vasitəsilə əldə etmək, bu mümkün olmadıqda məhkəmələrə və qanunun icrasına nəzarət edən Ombudsman-a müraciət etmək hüququ verir. Bundan başqa, qanun informasiya sahibi sayılan subyektlərin üzərinə onlardakı publik bilgiləri proaktiv açıqlamaq, öz saytlarına yerləşdirmək vəzifəsi qoyur. Bu vəzifəyə əməl edilməsi problemlidir. Jurnalist sorğularının araşdırması zamanı üzə çıxır ki, jurnalistlərin informasiya sorğuları vasitəsilə istədikləri informasiyaların hamısı informasiya sahiblərinin proaktiv açıqlamalı olduqları bilgilərdir, həmin bilgilər hər hansı sorğu olmadan hamının əlinin çatması üçün saytlara daxil edilməlidir. İnformasiyalar saytlara daxil edilmədiyi üçün jurnalistlər onu sorğu vasitəsilə əldə etmək məcburiyyətində qalırlar.

Jurnalistlərin məhkəmələrdən, xüsusilə, ictimai maraq dairəsində olan məhkəmə proseslərindən bilgi toplaması asan deyil. Qanunvericilik açıq keçirilən məhkəmə iclaslarından jurnalistlərin bilgi toplamasına hər hansı məhdudiyyət qoymur. Ancaq bu normalar problemlidir, məhkəmə iclaslarından bilgi toplanılması daha çox hakimlərin qərarından asılı durumdadır.

İnzibati qanunvericilik "İnformasiya əldə edilməsi haqqında" qanuna əməl etməyən, jurnalist sorğularına tam cavab verməyən informasiya sahibləri üçün cərimə növündə inzibati cəza nəzərdə tutur. Qanunvericiliyin effektiv işləməməsinin, jurnalist sorğularına tam və zamanında cavab verilməsi mühitinin formalaşmamasının başlıca səbələrdindən biri inzibati qanunvericiliyin bu normalarının tətbiq edilməməsidir. İndiyə qədər jurnalist sorğusuna cavab verməyən, müvafiq qanunvericilyi pozan heç bir informasiya sahibi məsuliyyətə cəlb olunmayıb. 2022-ci ildə informasiya açıqlığı qanunlarına nəzarət edən Ombudsman, inzibati qanunvericiliyin qeyd edilən müddəalarının tətbiq edilməsinə cəhd göstərib. Hacıqabul Rayon İcra Hakimiyyəti jurnalist Şəmistan Həziyevin informasiya sorğusuna cavab verməmişdi. Jurnalistin müraciətini nəzərə alan Ombudsman aparatı rayon icra hakimiyyətinin inzivati qanunvericiliyə uyğun olaraq cəzalandırlması məsələsinə baxılması üçün Hacıqabul Məhkəməsinə müraciət edib. Ancaq məhkəmə texniki əsaslar göstərməklə, bu müraciəti təmin etməyib.

# 3. JURNALİSTLƏRƏ QARŞI FİZİKİ-PSİXOLOJİ TƏZYİQ-TƏHDİDLƏR, PEŞƏ FƏALİYYƏTİNƏ DİGƏR MANEƏLƏR

2022-ci ildə Azərbaycanda peşə fəaliyyətini yerinə yetirən jurnalistlərin fiziki-psixoloji basqıya məruz qalması ilə bağlı azı 44 insident qeydə alınıb. İctimai maraq çərçivəsində olan kiçik etiraz aksiyaları, tədbirlərlə bağlı informasiyaları əsasən, müstəqil, tənqidçi internet mediası təmsilçiləri toplayıb-yayır. Peşə fəaliyyətini yerinə yetirərkən basqı ilə üzləşən jurnalistlərin əksəriyyəti də elə həmin medialarıın təmsilçiləri olublar.

Yanvar ayının 7-də ictimai fəal Qiyas İbrahim-in Prezident Sarayının qarşısında keçirdiyi etiraz aksiyasından informasiya toplayan jurnalistlər - Ələkbər Azayev və Əminə Məmmədova ərazidəki polis əməkdaşlarının və mühafizəçilərin müdaxiləsi ilə üzləşib. 2 gün sonra bloqqer Əvəz Hafizli də şəhərin mərkəzində çəkiliş aparan zaman saxlanılıb, 9-cu polis bölməsinə aparılan jurnalist bir saat sonra sərbəst buraxılıb. Tanınmış jurnalist, Meydan TV-nin əməkdaşı Sevinc Vaqifqızı Bakının mərkəzində sorğu apardığı yerdə polis əməkdaşlarının maneçiliyi ilə üzləşib. Jurnalistə maneçilik yaradan polis əməkdaşları media haqqında yeni qanunları əsas gətiriblər, jurnalistlərin istədikləri zaman bilgi toplamaq haqlarının məhdudlaşdırıldığını ifadə ediblər. Fevral ayında Prezident Sarayının yaxınlığında bir qrup vətəndaşın keçirmək istədikləri aksiyadan informasiya toplayan jurnalistləri - Fatimə Mövlamlı, azel.tv-nin əməkdaşı Sevinc Sadıqovanı polis əməkdaşları saxlayıblar. Prezident Sarayının yaxınlığına toplaşan bir qrup narazı fəhlənin şikayətlərini lentə alan jurnalistlər - Kanal 13 və "Azad söz" internet kanallarının əməkdaşları Günel Əliyeva və Vüsalə Nəciyeva rəsmilərin zorakı davranışına məruz qalıb. Jurnalist Təzəxan Mirələmli Abşeron rayonunda peşə fəaliyyətini yerinə yetirərkən təzyiqlə üzləşib. Bloqqer Nurlan Qəhrəmanlı (Libre) Bakı metrostansiyasında çəkiliş apararkən, polislər tərəfindən saxlanılıb. Jurnalist Nərgiz Absalamova "Koroğlu" metrosu yaxınlığında çəkiliş aparan zaman polisin müdaxiləsi ilə üzləşib. Toplum TV internet televiziyasının Vüsalə Mikayıl və Nuray Kamal Yasamal rayonu ərazisində peşə fəaliyyətlərini həyata keçirərkən zorakı davranışa məruz qalıblar. Mart ayında Rusiyanın Azərbaycandakı Səfirliyinin qarşısında keçirilən aksiyadan reportaj hazırlamaq istəyən jurnalistlər Gülnaz Qəmbərli, Təbriz Mirzəyev, Dilarə Qəzənfərqızı polis əməkdaşları tərəfindən saxlanılıb.

Bunlardan başqa “Amerikanın səsi” radiosunun əməkdaşı Türkan Bəşirova Bakının mərkəzində keçirilən aksiyalardan birində polis əməkdaşları tərəfindən saxlanılıb, 1 saata yaxın müddətdə onun peşə fəaliyyətini yerinə yetirməsinə imkan verilməyib. Polis əməkdaşları onunla kobud rəftar ediblər, jurnalistin bildirdiyinə görə, xanım poliz əməkdaşları ona ağrılı zərbələr endirib. abzas.org xəbər portalının əməkdaşı İsmayıl Tağıyev də sözügedən aksiya zamanı zorakılığa məruz qalıb. Sentyabrda müxalif siyasi partiya fəallarının etiraz aksiyasından əvvəl reportyor Anar Abdulla polislər tərəfindən saxlanılıb, polis idarəsinə aparılıb, bir neçə saat orda saxlanılıb. Noyabrda İranın Azərbaycandakı səfirliyinin yaxınlığında müxalif Müsavat Partiyası fəallarının keçirdiyi etiraz aksiyası da jurnalistlərə qarşı zorakılıqla müşayət olunub. Aksiyadan reportaj hazırlayan müstəqil jurnalistlər Dilarə Miriyeva, Elnarə Qasımova, “Meydan” TV-nin əməkdaşları Aysel Umudova, Aytac Tapdıq, “Azadlıq” qəzetinin reportyoru Fatimə Mövlamlı polis əməkdaşlarının qaba rəftarı ilə üzləşiblər. Qaynarxett.az saytının muxbiri Məhluqə Usubova Ceyranbatan qəsəbəsi yaxınlığında özəl müəssisənin mühaifəzilərinin orakılığına məruz qaldığını açıqlayıb. Arqument.az xəbər portalının əməkdaşı Elmar Əziz dekabrda Pirallahı rayon Polis İdarəsinə aparılıb. Jurnalist bundan bir gün əvvəl yol polisi əməkdaşlarının rüşvət alması iddia olunan video kadrları sosial media səhifəsində paylaşımışdı. Jurnalist polis idarəsində onunla kobud davrınıldığını, hədələndiyini bildirib. Hadisənin ertəsi gün jurnalistin valideynləri də polisə çağırılıb. Reportyor Teymur Kərimov Prezident Administrasiyanın qarşısında çəkiliş edərkən Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşlarının ona xəsarət yetirdiyini açıqlayıb.

2022-ci ilin əvvəlində jurnalistlərin, media rəhbərlərinin prokurorluq orqanlarına çağırılıb sorğu-sual edilmələri yayğın hal alıb. Baş Prokurorluq (azı 13) bir neçə jurnalistə və mediaya yazdıqları və ya yaydıqları məqalələrə görə, xəbərdarlıq edib. Jamaz.info saytının baş redaktoru Fikrət Fərəməzoğlu, yeniavaz.com xəbər saytının rəhbəri Anar Qaraxançallı, hərbi mövzularda yazıları ilə tanınan jurnalist Səxavət Məmmədov, olke.az, manevr.az, gazet.az və manset.az saytlarının rəhbərləri Baş Prokurorluğa çağırılıblar. F. Fərəməzoğlu, Səxavət Məmmədov, yeniavaz.com, olke.az, manevr.az saytlarının işləri məhkəməyə göndərilib. Onlar inzibati qaydada cərimə ediliblər (İnzibati Xətalar Məcəlləsi, madd 388-1.1, “yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə yol verilməsi).

Jamaz.info saytının rəhbəri F. Fərəməzoğlu ilin ikinci yarısında yenidən yazılarına görə prokurorluğa çağırılıb. Ona miq.az saytının rəhbəri Aqil Alışov ilə birlikdə hərbi mövzudakı yazılarına görə rəsmi xəbərdarlıq edilib. Hərbi mövzuda yazıları ilə tanınan Tofiq Şahmuradov da həmin vaxt prokurorluğa çağırılıb. Daha sonra məhkəmə qarşısına çıxarılan jurnalist inzibati qaydada 1 ay müddətinə həbs edilib (İnzibati Xətalar Məcəlləsi, madd 388-1.1, “yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə yol verilməsi). Prokurorluq tanınmış müstəqil jurnalist Heydər Oğuza, “Kanal 13” internet televiziyasının rəhbəri Əziz Orucova da yazılarına görə rəsmi xəbərdarlıq edib.

İctimai maraq dairəsində olan mövzuları araşdırmaları ilə tanınan jurnalistlər üçün fəaliyyət ortamının təhlükəsiz olduğunu söyləmək olmur. Bir ildə jurnalistlər bir neçə dəfə peşə fəaliyyətlərinə görə fiziki, habelə, telefonla zəng etməklə təhdidlə üzləşiblər. 2022-ci ildə bu aspektdə baş vermiş ən qorxunc olayla məhkəmələrdən reportajları ilə tanınan jurnalist, Azadlıq Radiosunun əməkdaşı Aytən Məmmədova üzləşib. Kimliyi hələ də müəyyən edilməmiş şəxs A. Məmmədovaya bıçaqla hücum edib, onu azyaşlı qızı ilə hədələyib. Missiya TV internet televiziyasının əməkdaşı Ceyhun Musaoğlu da aparıcısı olduğu proqramdakı çıxışına görə təhdid olunub. meclis.info saytının təsisçilərindən İmran Əliyevin Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparıldığı bildirilib. Kanal13 internet televiziyasının rəhbəri Əziz Orucovsa Bakı şəhərinin mərkəzində, ailəsinin yanında təhdid olunub. Azərbaycandan mühacirət etmiş bloqqer, Azad Söz kanalının rəhbəri Tural Sadıqlı da ölümlə təhdid olunduğunu bəyan edib. Noyabrda xaricdə yaşayan azərbaycanlı bloger

Orxan Ağayev Berlində yaşadığı mənzilin qarşısında hücuma məruz qalıb, ona bıçaqla xəsarət yetirilib.

Əvvəlki illərlə müqayisədə yayğın olmasa da jurnalistlərə qarşı şübhəli cinayət işlərinin açılması, onların ölkədən çıxışına qadağa qoyulması tendensiyası 2022-ci ildə də nəzərə çarpıb. Cənub regionunda fəaliyyət göstərən jurnalist, "Cənub xəbərləri" qəzetinin baş redaktoru Zahir Əmənova şübhəli ittihamlarla cinayət işi açılıb. "Azadlıq" qəzetinin əməkdaşı Səadət Cahangirinsə ölkədən çıxışına qadağa qoyulub. Başqa bir jurnalist, "Meydan" TV-nin reportyoru Sevinc Vaqifqızının ölkədən çıxışına qadağa qoyulması ilə bağlı tələbi isə Binəqədi rayon Məhkəməsi rədd edib. Hazırda həbsdə olan bir neçə jurnalist xəbərman.com saytının rəhbəri Polad Aslanov, "Yüksəliş naminə" qəzetinin redaktoru Elçin Məmmədov cəza çəkdikləri həbsxanalarda onlarla rəftar tərzinə, habelə, sifarişlə cəzalandırılmalarına etiraz olaraq, aclıq aksiyası keçiriblər. İctimai maraq dairəsində olan tədbirlərdən, etiraz aksiyalarından informasiyalar yayması ilə tanınan gənc bloqqer Əvəz Hafizli (Şıxməmmədov) fevral ayında şəxsi mübahisə zəmnində yaxın qohumu tərəfindən qətlə yetirilib.

Azərbaycanin milli qanunvericiliyi jurnalistlərin peşə fəaliyyətlərini sərbəst yerinə yetirmələrini kənar müdaxilələrdən qoruyur. Cinayət qanunvericiliyi (Cinayət Məcəlləsi, Maddə 163) jurnalistlərin qanuni peşə fəaliyyətinə mane olma halları üçün cinayət məsuliyyəti müəyyən edir. Qanunvericiliık, zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə jurnalistləri məlumat yaymağa və ya məlumat yaymaqdan imtinaya vadar etmə-ni jurnalistlərin qanuni peşə fəaliyyətinə mane olma kimi qiymətləndirir. Bu əmələ yol verənlər üçün bu cəzalar nəzərdə tutulur: 500 manatdan 1000 manata qədər cərimə; iki ilədək müddətə islah işləri; üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilmək; bir ilədək müddətə azadlıqdan məhrum etmə;

Azərbaycanin tərəfdar çıxdığı beynəlxalq müqavilələr, razılaşmalar da jurnalistllrə qarşı bütün təzyiqlərin operativ araşdırılmasını, günahkarların mühakimə olunmasını nəzərdə tutur. Dövlət, jurnalistlərin peşə fəaliyyətlərini azad və kənar müdaxilələr olmadan həyata keçirə bilmələri üçün güvənli və əlverişli ortam yaratmalıdır. Dövlətin həmçinin, jurnalistlərə qarşı hücumların qarşısının alınması, onların qorunması və hücum edənlərin, onların arxasında dayananaların məsuliyyətə cəlb edilməsi ilə bağlı pozitiv öhdəlikləri var. BMT İnsan Haqları Komitəsinin "Jurnalistlərin təhlükəsiliyi ilə bağlı" 2016-cı il tarixli, 33/2 saylı qərarı ilə bütün ölkələrin üzərinə öhdəlik qoyulur ki: jurnalistlərə yönəlik təhdid və hücumlarla bağlı – tərəfsiz, tez, əhatəli, müstəqil və təsirli araşdırma yolu ilə qoruyucu tədbirlər görülməlidir. Dövlətlər xüsusilə jurnalistlərə qarşı yol verilən cinayətlərlə bağlı xüsusi araşdırma qurumları yaratmalıdır; qurbanların uyğun bərpa edici həllərə (təzminat, təcili və uzun müddətli fiziki və psixoloji tibbi dəstək və. s.) əlçatanlığı təmin olunmalıdır.

2022-ci ildə peşə fəaliyyətini yerinə yetirərkən 40 dəfədən artıq müxtəlif basqılarla üzləşən jurnalistlərin əksəriyyəti araşdırma üçün hüquq mühafizə qurumlarına şikayət ediblər. Bu şikayətlərin əksəriyyəti araşdırılıb, adətən, 1 ay sonunda yekun qərar verilib. Bu qərarların hamısında jurnalistlərin tələbləri (onlara təzyiq edənlərə cinayət işi açılması) rədd edilib. Jurnalistlər E. Qasımovanın, A. Umudovanın, F. Mövlamlının, N. Absalamovanın şikayətləri üzrə prokurorluq orqanlarının qəbul etdikləri qərarlarda cinayət işi açılmasından imtina olunub. Bu qərarlar yalnız polislərin ifadələrinə əsaslanıb, jurnalistlərin şikayət etdiyi olayların iştirakçısı, izləyicisi olmuş digər şəxslərin izahatları alınmayıb.

# 4. DEFAMASİYA *(böhtan və təhqir)* İLƏ BAĞLI MƏHKƏMƏ İŞLƏR, HƏBSDƏKİ JURNALİSTLƏR

Böhtan və təhqirlə bağlı məhkəmə işlərinin əksəriyyəti xüsusi ittiham qaydasında verilmiş şikayətlərlə bağlıdır. Əksəriyyəti rəsmi şəxslər olan xüsusi ittihamçılar ən azı 16 işdə jurnalistlərin ictimai maraq dairəsində olan mövzulardakı məqalələrinə görə azadlıqdan məhrum edilməsini tələb ediblər.

Şimal regionunda fəaliyyət göstərən tanınmış jurnalist Cəmil Məmmədli Quba rayonunun İcra Hakimiyyətinin başçısının şikayəti əsasında 1 il 6 ay müddətinə islah işlərinə məhkum edilib, bundan başqa jurnalistin qazancının 20 faizi həmin müddətdə dövlətin xeyrinə tutulacaq. "Kim TV" internet televiziyasının aparıcısı Abid Qafarov 1 il müddətinə azadlıqdan məhrum edilib. Xural qəzetinin, xural.com xəbər resursunun və Xural TV internet kanalının baş redaktoru Əvəz Zeynallı xüsusi ittiham və mülki qaydada bir neçə işdə məhkəməyə şikayət edilib. Şərəf və ləyaqətinin jurnalist tərəfindən alçaldıldığını iddia edən Milli Məclisin deputatı Etibar Əliyev Binəqədi rayon Məhkəməsindən Əvəz Zeynallının üzərinə 11 min AZN mənəvi təzminat ödəmək vəzifəsi qoymasını tələb edib. Deputat həmçinin, Xural TV internet kanalının qapadılmasını istəyib. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Hüquq şöbəsinin müdiri Kamal Əliyev isə Əvəz Zeynallının azadlıqdan məhrum edilməsi üçün məıhkəməyə şikayət edib. Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının prezidenti Eldar İsmayılov 3 xəbər saytının - pravda.az, azsiyaset.com və baku.ws resursunun rəhbərlərini xüsusi ittiham qaydasında məhkəməyə verib. Jurnalist Ülviyyə Alovlunu müğənni Flora Kərimova, teleaparıcı Xoşqədəm Hidayətqızını isə Vəkillər Kollegiyasının üzvü Bəhruz Bayramov xüsusi ittiham qaydasında məhkəməyə verib. Daşkəsən rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev jurnalist Cavid Şirəliyevi 2 dəfə xüsusi ittiham qaydasında məhkəməyə verib. İş adamları Oktay və Xalid Abuzərlilərin demokrat.az saytının baş redaktoru Vasif Həsənliyə qarşı həm xüsusi ittiham qaydasında, həm də mülki qaydada məhkəməyə müraciət edib, jurnalistin həbsini və 50 min manat cəimə olunmasını tələb edib. Böyük Britaniyada yaşayan azərbaycanlı hüququnas və siyasətçi Qurban Məmmədov 5 tanınmış medianı - ARB TV, REAL TV, qafqazinfo.az, ATV və Turan İnformasiya Agentliyini mülki qaydada məhkəməyə verib. Cəlilabad rayonunda fəaliyyət göstərən jurnalist Rəşad Əkbəroğlu rayondakı məktəblərdən birinin direktoru tərəfindən mülki qaydada cərimələnib.

Jurnalist C. Məmmədli Xaçmazdakı ticarət mərkəzlərindən birinin ailə üzvləri tərəfindən bir neçə dəfə məhkəməyə verilib. İddiaçılar jurnalistlə şəxsi söhbət kontekstində işlədilmiş ifadələrin onların şərəf və ləyaqətlərini aşağıladığını iddia ediblər. Məhkəmə əvvəlcə iddianı əsassız olması səbəbindən icraata götürməkdən imtina edib. İkinci dəfə iddia icraata qəbul edilib və iddiaçılarla jurnalsit arasındakı söhbətin mətni linqvistik ekspertiza üçün göndərilib. Başqa bir jurnalist Aygün Muradxanlı lentə aldığı filmə görə, vəkil Aslan İsmayılov tərəfindən məhkəməyə verilib. A.İsmayılov jurnalist Taleh Şahsuvarlını da xüsusi ittiham qaydasında məhkəməyə verərək, onun defamasiyaya görə cinayət məsuliyyətinə cəlb edilməsiuni tələb edib. Rusiya vətəndaşı olan azərbaycanlı milyarder Fərhad Əhmədov "Şimal region" internet televiziyasında yayımlanan reportaja görə, həmin medianın rəhbəri Elçin İsmayıllını xüsusi ittiham qaydasında məhkəməyə verib. Məhkəmə böhtanda günahlandırılan jurnalistə qarşı şikayəti rədd edib. "Kristal Abşeron" şirkətinin jurnalist Məhəmməd Ərsoya qarşı şikayəti icraata qəbul edilib. Jurnalist böhtan və təhqirdə ittiham olunur. Eyni ittihamla üzləşən jurnalist Pərviz Hüseyn müğənni Könül Xasıyeva tərəfindən məhkəməyə verilib. Jurnalistin

mülki qaydada üzrxahlıq videosu yaymasını, təkzib verməsini və 40 min manat təzminat ödəməsini tələb edən müğənni həmçinin, onun cinayət məsuliyyətinə cəlb olunmasını məhkəmədən xahiş edib. Kanal13 internet televiziyası ilə əməkdaşlıq edən Xəyyam Salmanzadəni Ağdam rayonun İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov məhkəməyə verib. O, jurnalistin böhtan və təhqirə görə, azadlıqdan məhrum edilməsini tələb edib.

Hazırda müntəzəm jurnalist fəaliyyəti ilə məşğul olan azı 4 jurnalist həbsxanada cəza çəkir. “Yüksəliş naminə” qəzetinin və yukselish.info xəbər resursunun rəhbəri Elçin Məmməd 2020-ci ilin martından həbsdədir. Dövlət Təhlükəsizliyi Xidmətinin həbs etdiyi bloqer Aslan Qurbanov ötən il 7 il müddətinə azadlqıdan məhrum edilib. "Xeberman.com" və "Press-az.com" informasiya saytlarının təsisçisi və redaktoru Polad Aslanov 2019-cu ildə dövlətə xəyanətdə şübhəli bilinərək saxlanılıb, 16 il azadlıqdan məhrum olunub. Ali Məhkəmə onun cəzasını 16 ildən 13 ilə endirib. Kim TV internet kanalının aparıcısı Abid Qafarov böhtan və təhqir ittihamı ilə 1 il müddətinə azadlıqdan məhrum edilib. Qeyd edilənlərdən başqa mayda bloqçu kimi tanınan Rəşad Ramazanov da həbs edilib. May ayında bloqçu, Şirvan TV internet kanalının aparıcısı Eyvaz Yəhyaoğlu inzibati qaydada həbs edilib. İyunda yerli məhkəmələr, hüquqşunas, orduda baş verdiyi iddia olunan cinayətlər haqqında bloqlarından sonra məşhurşaşan İlham Aslanoğlunu təhqirdə təqsirli bilib, onu 6 ay müddətinə azadlıqdan məhrum edib.

Sentyabrda Xural qəzetinin baş redaktoru Əvəz Zeynallı rüşvət ittihamı ilə həbs edilib. Rəsmi ittihama görə, jurnalsit həbsdə olan iş adamından onun barəsində olan yazılara görə pul alıb. Jurnalist barəsində məhkəməyə qədər həbs qəti imkan tədbiri seçilib. Ona qarşı ittihamları rədd edən Ə.Zeynallı həmçinin, yazıları ilə vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə cinayətində də ittiham edilir (Cinayət Məcəlləsinin 312-1.1-ci maddəsi). Ə.Zeynallının işi üzrə daha bir jurnalist Səda TV-nin rəhbərlərindən Elnur Şükürov da məhkəməyə qədər həbs edilib. O da Cinayət Məcəlləsinin 312-1.1-ci maddəsi ilə şübhəli bilinir.

2022-ci ildə jurnalistlərə qarşı çıxarılan ən sərt hökm Yasamal Məhkəməsinin Kim TV internet kanalının aparıcısı Abid Qafarovu böhtan və təhqir ittihamı ilə 1 il müddətinə azadlıqdan məhrum etməsi olub. Xaçmaz məhkəməsi isə Quba rayon İcra Hakimiyyəti başçısının tələbi ilə jurnalist Cəmil Məmmədliyə ağır cinayət cəzası verib - 1 il 6 ay müddətinə islah işləri. Media və jurnalistlərə qarşı iddia və şikayətlərin əksəriyyəti böhtan və təhqirlə bağlı olub. Belə iddialar əsasında jurnalistlər ümumilikdə azı 37 dəfə məhkəməyə çəkiliblər. Qeyd edilən 2 işdən başqa jurnalistlərə qarşı digər iddia və şikayətlər üzrə başqa ağır cəzalar nəzərdə tutan qərarlar verilməyib.

Milli qanunvericilik məhkəmələrə ifadə azadlığı ilə bağlı iddia və şikayətlərə baxarkən Avropa Məhkəməsinin presedent hüququna istinad etməsini tövsiyyə edir. Avropa Məhkəməsinin ifadə azadlığı ilə bağlı presedent hüququna görə, milli məhkəmələr belə işlərə baxarkən mubahisə yaradan yazıların ictimai önəmli olub-olmamasını - ictimai maraq doğuran məsələ ilə bağlılığını, ifadənin siyasi xadimlər, hökumətdə vəzifə tutan şəxslər barədə, yoxsa adi şəxslər barədə olmasını, toplumda gedən müzakirələrdən qaynaqlanıb-qaynaqlanmadığını, vicdanlı yanılmaya yol verilib-verilmədiyini, ifadə azadlığına müdaxilənin demokratik cəmiyyətdə zəruriliyini, təxirəsalınmaz sosial tələbatdan irəli gəlməsini, müdaxilənin qarşiya qoyulmuş məqsədə adekvat olub-olmadığını araşdırmalıdır. 2022-ci ildə jurnalistlərə qarşı işlərdə şikayətlərin predmeti olan yazılar ictimai maraq dairəsinə aid məsələlərlə bağlı olub. Bununla belə məhkəmə çəkişmə predmeti olan yazıların ictimai önəmli məsələlərlə bağlı olub-olmamasına, ictimai debat anlamı daşıdığına qiymət verməyib,

belə anlayışlardan ümumiyyətlə istifadə etməyib. İstər jurnalistlərin cəzalandırılmasını nəzərdə tutan qərarlarda, istərsə də mediaya qarşı tələblərin rədd edildiyi qərarlarda Avropa Məhkəməsinin müəyyən etdiyi meyarlara istinadlar edilməyib. Dövlət orqanlarına və ictimai-siyasi xadimlərə qarşı yol verilən tənqidin digər şəxslərə nisbətən daha geniş olması heç bir qərarda ifadə edilməyib, varlığını sübut etmək mümkün olan faktlarla, sübutu mümkünsüz olan mülahizələrə fərq qoyulmadan jurnalistlərdən mülahizələri sübut etmək tələb olunub. İşlərin əksəriyyətində məhkəmə qərarları ümumiyyətlə əsaslandırılmayıb. Məsələn, jurnalist C.Məmmədliyə video proqramına görə, ağır cinayət cəzası verilmişdi. Mübahisəli məzmunda 200 vətəndaşın onların xəbəri olmadan işə götürülməsi, onların əmək haqlarının rayon adminstrasiyası rəhbəri tərəfindən mənimsənilməsi iddiası ilə bağlı idi. Jurnalist proqramı həmin 200 vətəndaşın məktubuna əsasən hazırlamışdı. Həmin 200 vətəndaş prosesə qatılmaq üçün gəlsələr də məhkəmə onların heç birini dindirmədi, qərarını şikayətçinin arqumentləri ilə əsaslandırdı. Qanunvericiliyin cinayət işlərində sübutetmə yükünü ittiham tərəfinin üzərinə qoymasına baxmayaraq məhkəmə bunu jurnalistlərdən tələb etməklə jurnalistləri cinayət törətməkdə təqsirləndirilən başqa şəxslərdən fərqləndirib, onları daha ağır və qeyri-bərabər vəziyyətə salıb. Məsələn, defamasiya iddiası ilə azadlıqdan məhrum edilən A.Qafarovun işində mübahisəli məzmunun doğruluğunu isbat etmə vəzifəsini jurnalistin üzərinə qoyub. Defamasiya ilə bağlı olmayan işlərdə - F.Fərəməzoğlunun, Səxavət Məmmədovun, yeniavaz.com, manevr.az saytlarının işlərində də məhkəmələr qərarlarını əsaslandırmayıblar, media, jurnalistlərin cəzalandırılmasını tələb edən prokurorluğun istəyini olduğu kimi təmin ediblər.

# 5. MEDİA QANUNVERİCİLİYİ

2022-ci ildə ümumilikdə media sahəsində baş vermis ən nəzərəçarpan hadisə “Media haqqında” yeni qanunun qüvvəyə minməsidir. İctimai müzakirə testindən keçmədən, media azadlığı ilə bağlı konstitusional və konvensional şərtlərə qətiyyən uyğun gəlməyən yeni qanun fevral ayında qüvvəyə minib. Bununla da problemləri olsa da Avropa Şurası standartlarına uyğunlaşdırlmış əvvəlki uyğun qanunlar – “Kütləvi informasiya vasitələri haqqında” və “Teleradio yayımı haqqında” qanunlar qüvvədən düşüb. Yeni qanun “Media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Prezidentinin 2021-ci ilin yanvarında imzaladığı fərmana uyğun olaraq, Media Agentliyi tərəfindən hazırlanıb.

## “Media haqqında” qanun

Media haqqında qanunun müəyyən etdiyi yeni tənzimləmələri aşağıdakı şəkildə ümumiləşdirmək olar:

Yeni qanun Azərbaycanda “media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir”. Onun müddəaları təkcə Azərbaycan ərazisində təsis olunmuş medialra deyil, həm də Azərbaycandan kənarda olan, fəaliyyəti Azərbaycana istiqamətlənmiş bütün media subyektlərinə edilir. 2022-ci ilə qədər bu məsələləri tənzimləyən əsas qanunlardan olan “Televiziya və radio yayımı

haqqında" və "Kütləvi informasiya vasitələri haqqında" qanunlar yeni qanunun qüvvəyə minməsi ilə ləv edilib.

Qanun əvvəlki qanunlardan fərqli olaraq, journalist anlayışı müəyyən edir. Qanuna görə: *"jurnalist – əmək müqaviləsi ilə media subyektində və ya fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə fəaliyyət göstərən, əsas fəaliyyət növü davamlı şəkildə məlumat toplamaq, hazırlamaq, redaktə və istehsal etmək, ötürmək, habelə həmin məlumatlara dair fikir bildirmək (şərh vermək) olan və bu fəaliyyəti gəlir əldə etmək məqsədilə yerinə yetirən şəxs;"*

Qanun mediaları təsnifləndirir, onları audiovizual mediaya, çap mediasına, onlayn mediaya, informasiya agentliyinə bölür. Qanun media savadlılığına da anlayış verir: *"media savadlılığı – kütləvi informasiyanın məzmunu, onun ötürülməsi və istehlakı üzrə biliyə sahib olma, tənqidi dəyərləndirmə, müxtəlif kontekstlərdə istifadə etmə və təhlil aparma qabiliyyəti".* Teleradio yayımçılarının "audiovizual", "yerüstü", "platforma", "peyk", "kabel", "İPTV", "OTT", "mobil TV" yayımlarınövləri müəyyən edilir. Yayımçılar yayıldıqları areala görə, "ümumölkə" və "regional" yayımçılara bölünür. Qanun media, jurnalistlər üçün əhəmiyyətli sayılmalı olan tədbirlərə də izah verir: *"əhəmiyyətli tədbir – cəmiyyət üçün maraq kəsb edən və ölkə ərazisində fəaliyyət göstərən media subyektləri tərəfindən dərc olunması və (və ya) yayımlanması nəzərdə tutulan ictimai, siyasi, sosial və iqtisadi məzmunlu hadisə".*

Yeni qanun hərbi və fövqəladə vəziyyət dövründə, habelə, dini ekstremizm və terror əleyhinə aparılan əməliyyatlarda medianın fəaliyyətini "Hərbi vəziyyət haqqında", "Fövqəladə vəziyyət haqqında", "Dini ekstremizmə qarşı mübarizə haqqında" və "Terrorçuluğa qarşı mübarizə haqqında" qanunların tələblərinə tabe etdirir.

Mediada yayılan informasiyalar qanunla müəyyən edilən tələblərə cavab verməlidir. Qanunun müəyyən etdiyi tələblər: *konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşlara açıq çağırışlar edilməməlidir, dövlət rəmzlərinə hörmətsizliyə yol verilməməlidir, dövlət dili normalarına riayət edilməlidir, irqi, dini, mənşə, cinsi, etnik və digər ayrı-seçkilik təbliğ olunmamalıdır, etnik, irqi və ya dini düşmənçiliyin salınmasına açıq çağırışlar edilməməlidir, terrorçuluq, dini ekstremizm, zorakılıq və qəddarlıq təbliğ olunmamalı, habelə terrorçuluğun maliyyələşdirilməsinə, terrorçuluq məqsədilə təlimlərin təşkil edilməsinə və ya keçirilməsinə yönələn məlumatlar yayılmamalıdır, terrorçuluğa açıq çağırışlar edilməməlidir, əxlaqdankənar leksik (söyüş) məzmunlu söz və ifadələrdən, jestlərdən istifadəyə yol verilməməlidir; şərəf və ləyaqətin alçaldılmasına, işgüzar nüfuzun ləkələnməsinə yol verilməməlidir; şəxsin ailə və şəxsi həyatına aid sirr olan məlumatların yayılmasına yol verilməməlidir; böhtana, təhqirə və nifrət çıxışlarına yol verilməməlidir; sağlamlığın və ətraf mühitin qorunmasına zidd olan hərəkətlər təbliğ olunmamalıdır; faktlar və hadisələr qərəzsiz və obyektiv təqdim olunmalı, birtərəfliliyə yol verilməməlidir; parapsixologiya (ekstrasens, medium və s.), mövhumatçılıq və ya digər xürafələrin təbliğinə yol verilməməlidir; pornoqrafiya məzmunlu materialların dərc edilməsinə (yayımlanmasına) yol verilməməlidir; qanuni qüvvəyə minmiş məhkəmə qərarı olmadan şəxsin təqsirli olması barədə məlumatların dərc edilməsinə (yayımlanmasına) yol verilməməlidir.*

Qanun həmçinin mediaya "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunların müvafiq tələblərinə əməl etmək vəzifəsi qoyur. Onlayn mediaların yaydıqları məzmunlar yuxarıda sadalanan şərtlərə cavab verməzsə, həmin medialar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanuna uyğun olaraq, məhkəmə qaydasında bloklanır.

Qanun həmçinin, media və jurnalistlərə sadalanan informasiyaların yayılmasına qadağa qoyur: *şəxsin gizli saxlanmaq şərtilə verdiyi informasiyanın proqram və materiallarda yayılmasına; məlumat vermiş şəxsin razılığı olmadan onun şəxsiyyətinin açıqlanmasına; təhqiqatçının, müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin icazəsi olmadan ibtidai araşdırma məlumatlarının yayılmasına; Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada tərtib edilən və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sənədləşdirilmiş informasiya hesab edilən cinayət təqibi üzrə icraat materiallarının surətlərinin olduğu kimi yayılmasına; yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə hər hansı məlumatların həmin şəxslərin və onların qanuni nümayəndələrinin razılığı olmadan yayılmasına.*

Qanun jurnalist qaynaqlarının qorunmasını nəzərdə tutur. Qanuna əsasən jurnalistlər yalnız bu hallarda qaynağını açıqlamaldır: *insan həyatının müdafiəsi üçün; ağır və xüsusilə ağır cinayətlərin qarşısını almaq üçün; ağır və xüsusilə ağır cinayət törətməkdə təqsirləndirilən şəxsin müdafiəsi üçün.*

Qanun media və jurnalistlərə gizli audio və videoların, fotoların yayılmasını qadağan edir. Media belə materialları yalnız audio-videosu, fotosu gizli çəkilən şəxsin razılığı və məhkəmənin qərarı ilə yaya bilər.

Qanun media subyektləri üçün tələblər müəyyən edir. Media təsisçisi fiziki şəxsdirsə, mütləq Azərbaycanda daimi yaşamalı, Azərbaycan vətəndaşı olmalı, təsisçi hüquqi şəxsdirsə, nizamnamə kapitalının 75 faizi Azərbaycan vətəndaşına və ya Azərbaycanda qeydiyyatdan keçmiş hüquqi şəxsə məxsus olmalıdır. Qeyd edilənlər media təsisçisi ola bilməzlər: ***ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edilmiş şəxslər; məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər; məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslər***. Bunlardan başqa: ***Siyasi partiyalar və dini qurumlar yalnız çap mediasının təsisçisi (iştirakçısı) ola bilərlər. Media subyektinin onun təsisçisi (iştirakçısı) olmayan xarici ölkələrin fiziki və ya hüquqi şəxsləri, onların filial və nümayəndəlikləri, həmin şəxslərin Azərbaycan Respublikasında təsis etdikləri hüquqi şəxslər, habelə xarici ölkələrin dövlət qurumları tərəfindən maliyyələşdirilməsinə yol verilmir***. Qanuna görə, medianın rəhbəri mütləq ali təhsilli olmalıdır.

Audiovizual media sahəsində dövlət tənzimləməsini Milli Televiziya və Radio Şurasının bazasında yaradılmış Audiovizual Şura həyata keçirir. Qanuna görə, bu qurum dövlət büdcəsindən və qanunla qadağan olunmayan digər mənbələrdən maliyyələşir. Şura sədr də daxil olmaqla 5 illiyinə təyin edilən 7 üzvdən ibarət tərkibdə fəaliyyət göstərir. Onları vəzifəyə Azərbaycan Prezidenti təyin və vəzifədən azad edir. Bu şəxslər Şura üzvü ola bilməzlər: ***ali təhsili olmayanlar; ikili vətəndaşlığı və ya başqa dövlətlər qarşısında öhdəliyi olanlar; dövlət orqanlarında (qurumlarında) ödənişli, seçkili və ya təyinatlı vəzifə tutanlar, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olanlar; din xadimləri; fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq edilmiş şəxslər; ağır və xüsusilə ağır cinayətlərə görə məhkumluğu üzərindən götürülməmiş, yaxud məhkumluğu ödənilməmiş şəxslər; media subyektləri və onların təsisçisi (iştirakçısı) olan şəxslər.***

Audiovizual medialar lisenziya aldıqdan sonra fəaliyyət göstərə bilərlər. Lisenziyalar Şura tərəfindən, müsabiqə yolu ilə verilir. Əvvəllər yayım lisenziyası əldə edən, ancaq ləğv edilən fiziki və hüquqi şəxslər yalnız 3 il keçdikdən sonra yenidən lisenziya müsabiqəsinə qatıla bilərlər. Lisenziyalar

"Media haqqında" qanunun tələbləri pozulduqda Şuranın qərarları ilə müxtəlif müddətlərə dayandırla və ləğv edilə bilər. Lisenziyalar yalnız bir halda Şuranın iddiası əsasında məhkəmə tərəfindən ləğv edilə bilər. Qanunun 58.4-cü maddəsinə görə: "Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşlara, etnik, irqi və ya dini nifrət və düşmənçiliyin salınmasına, terrorçuluğa açıq çağırışlar, habelə terrorçuluğun maliyyələşdirilməsinə, terrorçuluq məqsədilə təlimlərin təşkil edilməsinə və ya keçirilməsinə yönələn məlumatların yayılması lisenziya sahibi olan yayımçı tərəfindən müdafiə olunduqda və ya bu çağırışları səsləndirməyə bilərəkdən şərait yaradıldıqda, lisenziya Şuranın iddia ərizəsi əsasında məhkəmənin qərarı ilə ləğv edilir."

Çap mediası və onlayn media subyektlərinin təsis edilməsi üçün lisenziya tələb olunmur. Ancaq onlar tənzimləyici dövlət orqanına fəaliyyətə başlamaları barədə müraciət etməlidilər. Qanun bununla bağlı deyir: ***"Çap mediası və onlayn media subyekti kimi fəaliyyət göstərmək üçün hüquqi və ya fiziki şəxs müvafiq olaraq çap mediası məhsulunun istehsalından və materialın yayımlanmasından 7 (yeddi) gün əvvəl müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) rəsmi müraciət etməlidir."*** Dini məzmunlu çap və onlayn media subyektinin təsis edilməsi ilə bağlı müraciətə isə müvafiq dövlət orqanınının müsbət rəyi də əlavə olunmalıdır. Qanunvericilik onlayn medialara fəaliyyətin davamlı olması şərti qoyur, belə ki, onlayn media subyekti hər ay 20 gün ərzində gündəlik azı 20 özəl kütləvi informasiya dərc etdikdə onun fəaliyyəti davamlı hesab olunur.

Çap və onlayn media subyektlərinin fəaliyyəti dayandırıla və fəaliyyətinə xitam verilə bilər. Qeyd edilən hallarda tənzimləyici dövlət orqanı çap və onlayn media subyektlərinin fəaliyyətinin 2 aylığa dayandırılması üçün məhkəmədə iddia qaldırır: ***əcnəbi və ya vətəndaşlığı olmayan şəxs, habelə ali təhsili olmayan şəxs idarəetmə orqanının rəhbəri vəzifəsinə təyin edildikdə; media sahəsində fəaliyyət azadlığından və jurnalist hüququndan sui-istifadə etməyə görə inzibati tənbeh almış şəxs eyni xətanı inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törətdikdə; digər mediaların materiallarını yayarkən istinad və abunəlik qaydlarını pozmağa, "Media haqqında" qanunla yayılması qadağan oluna materilları yaymağa görə il ərzində 3 dəfə xəbərdarlıq edildikdən sonra həmin pozuntuları təkrar törətdikdə; mediaların xaricdən maliyyə alması aşkar edildikdə.***

Tənzimləyici dövlət orqanı qeyd edilən hallarda çap və onlayn mediaların fəaliyyətinə xitam verilməsi barədə məhkəmə qarşısında iddia qaldırır: əcnəbi və ya vətəndaşlığı olmayan şəxs, habelə ali təhsili olmayan şəxs idarəetmə orqanının rəhbəri vəzifəsinə təyin edildikdə; fəaliyyəti müvəqqəti dayandırılmış medialar 2 il ərzində yenidən həmin pozuntulara yol verdikdə, təsisçiliklə bağlı qaydalar pozulduqda; medialar tənzimləyici dövlət orqanına fəaliyyət göstərdikləri barədə müraciət etmədikdə.

Qanun Azərbaycanda fəaliyyət göstərən media və jurnalistlərə dair məlumatların sistemləşdirilməsi məqsədilə, tənzimləyici dövlət orqanı tərəfindən Media Reyestri-nin yaradılmasını nəzərdə tutur. Qanun Media Reyestrinə daxil edilmək üçün tələblər müəyyən edib. Bu tələblər medialara və fərdi jurnalistlərə münasibətdə fərqlənir. Medialara münasibətdə tələblər bunlardır: ***media subyektlərinə dair tələblərə cavab verməlidir; fəaliyyəti davamlı olmalıdır (hər ay azı 400 özəl məzmun yaymalıdır); fəaliyyəti bu Qanunun 13.1-ci (Media subyekti digər media subyektinin informasiyasını və proqramlarını istinad etməklə abunəlik və ya müqavilə əsasında istifadə edə bilər) və 13.2-ci (Abunəlik və ya müqavilə olmadıqda media subyekti digər media subyektinin hər bir informasiyasının yalnız üçdə birindən çox olmayan hissəsini istinad etməklə istifadə edə bilər) maddələrinin tələblərinə uyğun olmalıdır; hüquqi şəxs olduqda, hüquqi şəxslərin dövlət reyestrində qeydiyyata***

*alınmış olmalıdır; fiziki şəxs olduqda, fərdi sahibkar kimi vergi uçotuna alınmış olmalıdır; Media Reyestrində olan digər media subyektlərinin redaksiyalarının loqotipləri (emblemləri) ilə eyni və ya oxşar olmamalıdır.*

Jurnalistlərin fərdi qaydada Media Reyestrinə daxil edilməsi üçün qanun bu şərtləri müəyyən edib: *ali təhsili olmalıdır; fəaliyyət qabiliyyətli olmalıdır; ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edilməmiş olmalıdır; məhkumluğu ödənilmiş və ya götürülmüş olmalıdır; media subyekti ilə əmək müqaviləsi olmalıdır (fərdi olaraq müəllif hüquqları əsasında işləyən jurnalistlərin azı bir media subyekti ilə mülki hüquqi müqaviləsi olmalıdır); işlədiyi media subyekti Media Reyestrinə daxil edilmiş olmalıdır; işlədiyi media subyekti davamlı fəaliyyət göstərməlidir (müraciət tarixinə qədər fəaliyyət göstərməmiş media subyektləri istisna olmaqla); jurnalistlərin fəaliyyəti bu Qanunun 13.1-ci və 13.2-ci maddələrinin tələblərinə uyğun olmalıdır; işlədiyi çap mediası subyektinin fəaliyyətində yaranmış fasilə bu Qanunun 59.7-ci maddəsində nəzərdə tutulmuş müddətdən artıq olmamalıdır; jurnalistika sahəsi üzrə 3 (üç) ildən az olmayaraq iş stajı olmalı və ya elmi və pedaqoji təhsil müəssisələrində jurnalistika sahəsində 3 (üç) ildən az olmayan müddətdə fəaliyyət göstərməlidir; jurnalist kimi fəaliyyət göstərdiyi müddət ərzində peşə etikası (etik davranış) qaydalarına riayət etməlidir; fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə işləyən jurnalist fərdi sahibkar kimi vergi uçotuna alınmış olmalıdır. Sadalan tələblərə cavab verməyən media və jurnalistlərin Media Reyestrinə daxil edilməsindən imtina olunur.*

Qanun reyestrə daxil edilmiş media və jurnalistlərin reyestrdən çıxarılmasının əsaslarını müəyyən edir. Jurnalistlər bu hallarda Media Reyestrindən çıxarılır: *jurnalistin ərizəsi olduqda; ağır və xüsusilə ağır cinayətlərə görə məsuliyyətə cəlb edildikdə; öldükdə və ya qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə ölmüş və ya itkin düşmüş elan edildikdə; yayımladığı informasiyanın bu Qanunun 14-cü maddəsinin tələblərinə cavab verməməsi halları il ərzində 3 (üç) dəfə aşkar edildikdə; işlədiyi media subyekti, yaxud fərdi olaraq müəllif hüquqları əsasında işlədiyi yeganə media subyekti Media Reyestrindən çıxarıldıqda; Media Reyestrinə daxil edilmək üçün tələblərə cavab vermədiyi üzə çıxdıqda; Yayılması qanunla qadağan edilən infoirmasiyaları il ərzində 3 dəfə yaydığı halda;*

Qanun reyestrə daxil edilmiş media və jurnalistlər üçün güzəştlər nəzərdə tutur: media subyektlərinə dövlət orqanları (qurumları) tərəfindən rəsmi elan və sosial reklamların sifarişi; təlimlərdə ödənişsiz və ya güzəştli əsaslarla iştirak; tənzimləyici dövlət orqanının layihələrində iştirak; maliyyə xarakterli güzəşt və imtiyazlardan (güzəştli kreditlərdən yararlanmaq daxil olmaqla) istifadə;

Qanun Media Reyestrinə daxil edilmiş jurnalistlərə tənzimləyici dövlət orqanı tərəfindən 3 il etibarlı olan jurnalist vəsiqəsinin verilməsini nəzərdə tutur. Vəsiqəsi olan jurnalistlər imtiyazlar əldə edir: *dövlət və bələdiyyələrə aid muzey, qalereyalara, mədəni-ictimai tədbirlərin həyata keçirildiyi obyektlərə ödənişsiz daxil olmaq; dövlət orqanlarında, qeyri-hökumət təşkilatlarında akkreditasiya olunmaq.* Qanun yalnız reyestrdə qeydiyyatdan keçmiş jurnalistlərin dövlət qurumlarında və digər qurumalarda akreditasiya oluna biləcəyini müəyyən edir.

Qanun Media Reyestrinin yaradılması üçün 6 ay vaxt müəyyən edib. Azərbaycan Prezidenti 26 sentyabr 2022-ci il tarixdə "Media Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında fərman imzalayıb. Reyestrin formalaşdırılması 2023-cü ilin mart ayının sonunda başa çatmalıdır.

Qanunun keçid müddəalarına görə, yeni qanun qüvvəyə minənədək fəaliyyət göstərən çap və onlayn medialar reyestrdə qeydiyyatdan keçmək üçün tənzimləyici dövlət orqanına müraciət etməlidilər. Bu müraciəti etməmək çap və onlayn media subyektlərinin fəaliyyətinin dayandırılması, onların fəaliyyətinə xitam verilməsi üçün əsas rolunu oynaya bilər. Qanunun 65.4-cü maddəsinə

görə, tənzimləyici dövlət orqanı reyestrə müracitə etməyən çap və onlayn media subyektlərinin fəaliyyətinə xitam verilməsi barədə məhkəmə qarşısında iddia qaldırır.

## Media, ifadə azadlığı aspektindən qanundakı problemli tənzimləmələr

**Jurnalist, jurnalist fəaliyyəti anlayışı ilə bağlı** – Yeni qanun "jurnalist fəaliyyəti"nə anlayış vermir. "Media"ya yayğın anlayış verir: "kütləvi informasiyanın dövri və ya müntəzəm olaraq dərc olunmasını və (və ya) yayımlanmasını həyata keçirmək üçün istifadə olunan alət və vasitələr, habelə onlar vasitəsilə formalaşan informasiya mühiti". "Jurnalist" anlayışı isə ciddi şəkildə çərçivələnib. Qanun "jurnalist" üçün belə anlayış müəyyən edib: "əmək müqaviləsi ilə media subyektində və ya fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə fəaliyyət göstərən, əsas fəaliyyət növü davamlı şəkildə məlumat toplamaq, hazırlamaq, redaktə və istehsal etmək, ötürmək, habelə həmin məlumatlara dair fikir bildirmək (şərh vermək) olan və bu fəaliyyəti gəlir əldə etmək məqsədilə yerinə yetirən şəxs". Bu anlayış əsasən 3 dəqiq əlaməti ifadə edir: yalnız (1) hansısa media ilə əmək müqaviləsi olan və ya mülki müqavilə ilə fəaliyyət göstərən; (2) əsas fəaliyyət növü informasiya toplayıb-yaymaq olan; (3) bu fəaliyyəti gəlir əldə etmək üçün yerinə yetirən şəxslər jurnalist hesab edilir. Sərbəst şəkildə jurnalistika fəaliyyəti ilə məşğul olmağa imkan yeri qoymayan bu anlayış Azərbaycan Konstitusiyasının və Azərbaycanın tərəfdar çıxdığı müqavilələrin işığında olduqca məhdudlaşdırıcıdır.

Ümumilkdə son 10-15 ilin jurnalistika anlayışına çox ciddi dəyişikliklər gətirdiyini qeyd etməliyik. Hazırda nələrin "jurnalistika fəaliyyəti"ni təşkil etməsi mövzusunda hər kəsi ortaq məxrəcə gətirə biləcək anlayışın olmamasına rəğmən, beynəlxalq quruluşlar və bəzi məhkəmələr "jurnalistika fəaliyyəti"nə yekun olmayan anlayışlar veriblər və hər zaman jurnalistlərin sərbəst fəaliyyət göstərə bilməsinin, vətəndaş jurnalistikasının önəmini vurğulayıblar. Əssas odur ki, bu quruluşlar funksional "jurnalistika"nın anlayışını veriblər və bu anlayış "müəyyən meyarlara cavab verməsi şərti ilə yeni mediadan istifadə edərək toplumla açıq şəkildə ünsiyyət quran fərdlər"i əhatə edir. Məsələn, BMT İnsan Haqları Komitəsi özünün 34 saylı Ümumi Şərhində "jurnalistika"ya belə tərif verib: "Jurnalistika, bloq yazarları, çap, internet və başqa platformada fərdi yayıncılıqla məşğul olan başqaları da daxil olmaqla çox çeşidli aktorlar tərəfindən paylaşılan bir fəaliyyətdir və jurnalistlərin qeydiyyatının aparılması və ya lisenziyalaşdırılması BMT Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 19-cu maddəsinə uyğun deyildir. Məhdud akkreditasiya qaydalarına yalnız jurnalistlərin müəyyən yerlərə və ya tədbirlərə məhdud sayda buraxılması gərəkli olduqda icazə verilə bilər. Belə qaydalar jurnalistikanın çox çeşidli aktorlar tərəfindən həyata keçirilən fəaliyyət sahəsi olması nəzərə alınmaqla, obyektiv meyarlara əsaslanaraq, ayrı-seçkiliyə yol verilmədən, Bəyannamənin 19-cu maddəsi və digər müddəalarına uyğun şəkildə tətbiq edilməlidir. Avropa Şurası Nazirlər Komitəsi də "jurnalist" terminini yuxarıda olduğu kimi geniş anlamda təsvir edir. Komitənin R (2000)7 saylı qərarında vurğulayıb ki, "jurnalist" anlayışı, informasiyaların toplanması və hər hansı kütləvi kommunikasiya vasitəsilə topluma ötürülməsi ilə müntəzəm və peşəkar şəkildə məşğul olan hər hansı fiziki və ya hüquqi şəxs deməkdir". Komitə həmin sənəddə həmçinin, dövlətlərə xitabən qeyd edir ki; Avropa İnsan Haqları Konvensiyasının 10-cu maddəsinə uyğun olaraq, insanların informasiya əldə etmək və yaymaq haqlarını qoruma altına almaq üçün media ekosisteminə xidmət və ya məhsul təqdim edən bütün aktorlar baxımından qanunvericiliklə bağlı ehtiyaclar gözdən keçirilməli və 10-cu maddədən doğan haqlarla bağlı neqativ təsirə malik ola biləcək müdaxilələrə qarşı uyğun təminatlar bütün aktorları əhatə edən şəkildə genişləndirilməlidir.

Yeni qanunun "jurnalist" anlayışı kontekstində müəyyən etdiyi qanuni tənzimləmələr, qeyd edilənlərin işığında, eləcə də Azərbaycan reallığında çox təhlükəli görünür. Azərbaycanda çap və yayım (tele-radio) mediası tamamilə hökumətin nəzarətində, onlayn medialar (ümumilikdə onlayn xəbərçatdırma kontekstindəki fəallıq) da davamlı basqılar (əməkdaşların informasiyalara çıxış imkanlarının zəifliyi, bilgi toplayan əməkdaşlara basqılar, onların araşdırılmaması, bloklamalar və.s) altındadır. Güvənli bilgi çatdıran, tənqidi məzmunlu əsas onlayn mediaların əksəriyyəti yerli medialar deyil. Reklam vəsaitləri siyasi hakimiyyətə bağlı biznesin əlində olduğundan, onlar, eləcə də azad fəaliyyət göstərən jurnalistlər daha çox əvəzsiz xarici yardımlardan asılıdır. Belə durumda qanuni "jurnalist fəaliyyəti"nin mütləq hansısa media ilə müqavilə şərtinə tabe etdirilməsi xüsusilə, azad, tənqidçi jurnalistlərin fəaliyyət imkanlarını heçə endirir.

Vergi qanunvericiliyinə əsasən, jurnalistika fəaliyyəti ilə məşğul olanlar, məhz bu fəaliyyət kodu üzrə onsuz da vergi qeydiyyatına alınırlar. Statistik və ya digər məqsədlərlə vergi ödəyicilərinin bazasından kimlərin və ya hansı sayda fərdlərin jurnalistika məşğuliyyəti ilə məşğul olduğunu aydınlaşdırmağa kifayət edir. Odur ki, qanunda jurnalistin hansısa media ilə müqaviləyə, yaxud, digər mülki müqaviləyə malik olmaq şərtinin müəyyən edilməsinin mənası aydın deyil.

**Məzmunun tənzimlənməsi ilə bağlı** – Azərbaycan qanunvericiliyi məzmuna onsuz da geniş məhdudiyyətlər imkanı verir. Azərbaycanın cinayət qanunvericiliyi böhtan və təhqirə görə, cinayət cəzaları nəzərdə tutur. Məzmuna inzibati məsuliyyətin tətbiq edilməsi üçün imkanlar daha genişdir. Məsələn, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanun yayılması qadağan edilən informasiyaların geniş spektrini müəyyən edib: "terrorçuluğun təbliği və maliyyələşdirilməsi, terrorçuluğun həyata keçirilməsinin üsul və vasitələri, terrorçuluq məqsədi ilə təlim təşkil etmə və ya keçirmə barədə məlumatlar, habelə terrorçuluğa açıq çağırışlar; zorakılığın və dini ekstremizmin təbliğinə dair məlumatlar, milli, irqi və ya dini nifrət və düşmənçiliyin salınmasına, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşların təşkil edilməsinə yönələn açıq çağırışlar; dövlət sirri təşkil edən məlumatlar; odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların hazırlanma qaydası və ya üsulları barədə məlumatlar; narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının hazırlanma və ya istifadə üsulları və qaydası, onların qanunsuz əldə edilməsi yerləri, habelə tərkibində narkotik maddələr olan bitkilərin kultivasiya yerləri və ya üsulları barədə məlumatlar; pornoqrafiyaya, o cümlədən uşaq pornoqrafiyasına aid məlumatlar; qumar və digər qanunsuz mərc oyunlarının təşkilinə və həmin oyunlarda iştiraka təhrik edən məlumatlar; intiharı problemlərin həlli üsulu qismində təbliğ edən, intihara bəraət qazandıran, onu əsaslandıran və ya törədilməsinə təhrik edən, intiharın törədilməsi üsullarını izah edən və ya qrup şəklində bir neçə şəxsin intihar etməsini təşkil etmək məqsədi ilə yayılan məlumatlar; "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq yaş kateqoriyasına uyğun işarələnməmiş kino, televiziya və videofilmlər, o cümlədən animasiya filmləri, kompüter və digər elektron oyunlar; təhqir və ya böhtan xarakteri daşıyan, habelə şəxsi həyatın toxunulmazlığını pozan məlumatlar; əqli mülkiyyət hüquqlarını pozan məlumatlar; insanların həyat və sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının törədilməsi, ictimai təhlükəsizliyin kütləvi şəkildə pozulması, həyat təminatı obyektlərinin, maliyyə, nəqliyyat, rabitə, sənaye, energetika və sosial infrastruktur obyektlərinin fəaliyyətinin pozulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhdidini törədən yalan məlumatlar; Azərbaycan Respublikasının qanunları ilə yayılması qadağan edilən digər informasiyalar".

Qeyd edilən məzmunda informasiayların yayılması inzibati məsuliyyət (500-dən 2000 manata qədər cərimə və ya 1 ayadək inzibati həbs) yaradır. Bu müddəa yayğın olaraq tətbiq edilir. "Media

haqqında" qanun bu şərtlərin siyahısını genişləndirir, qanunun 14-cü maddəsi (Mediada dərc olunan və (və ya) yayımlanan informasiyaya dair tələblər) məzmunla bağlı azı 16 şərt müəyyən edib: Mediada dərc olunan və (və ya) yayımlanan informasiya aşağıdakı tələblərə cavab verməlidir: Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşlara açıq çağırışlar edilməməlidir; Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmətsizliyə yol verilməməlidir; dövlət dili normalarına riayət edilməlidir; irqi, dini, mənşə, cinsi, etnik və digər ayrı-seçkilik təbliğ olunmamalıdır, habelə etnik, irqi və ya dini düşmənçiliyin salınmasına açıq çağırışlar edilməməlidir; terrorçuluq, dini ekstremizm, zorakılıq və qəddarlıq təbliğ olunmamalı, habelə terrorçuluğun maliyyələşdirilməsinə, terrorçuluq məqsədilə təlimlərin təşkil edilməsinə və ya keçirilməsinə yönələn məlumatlar yayılmamalıdır, terrorçuluğa açıq çağırışlar edilməməlidir; əxlaqdankənar leksik (söyüş) məzmunlu söz və ifadələrdən, jestlərdən istifadəyə yol verilməməlidir; şərəf və ləyaqətin alçaldılmasına, işgüzar nüfuzun ləkələnməsinə yol verilməməlidir; şəxsin ailə və şəxsi həyatına aid sirr olan məlumatların yayılmasına yol verilməməlidir; böhtana, təhqirə və nifrət çıxışlarına yol verilməməlidir; sağlamlığın və ətraf mühitin qorunmasına zidd olan hərəkətlər təbliğ olunmamalıdır; faktlar və hadisələr qərəzsiz və obyektiv təqdim olunmalı, birtərəfliliyə yol verilməməlidir; parapsixologiya (ekstrasens, medium və s.), mövhumatçılıq və ya digər xürafələrin təbliğinə yol verilməməlidir; pornoqrafiya məzmunlu materialların dərc edilməsinə (yayımlanmasına) yol verilməməlidir; qanuni qüvvəyə minmiş məhkəmə qərarı olmadan şəxsin təqsirli olması barədə məlumatların dərc edilməsinə (yayımlanmasına) yol verilməməlidir; "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə əməl edilməlidir; "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13-2.3-cü maddəsində nəzərdə tutulmuş digər informasiyanın yayımlanmasına yol verilməməlidir. Bu şərtlərə əməl etməyən media subyektlərini "fəaliyyətin və media məhsullarının yayımlanmasının dayandırılması, habelə həmin subyektlərin fəaliyyətinə xitam verilməsi" cəzası gözləyir.

Azərbaycan Konstitusiyasına görə: *"Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. … Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır."* Avropa Konvensiyasının 10-cu maddəsində də göstərilir ki: *"Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneçilik olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir".* Bu mətnlərdən göründüyü kimi, ifadə azadlığı hər cür ifadələri qoruyur və məzmun baxımından heç bir məhdudiyyət nəzərdə tutulmur. İfadə azadlığı baxımından məzmunun qiymətli olub – olmaması, cəmiyyət üçün faydalı olub-olmaması vacib deyil. Belə qiymətləndirmə subyektivdir, həmin qiymətləndirmələr əsasında ifadə azadlığı hüququnun çərçivəsini müəyyənləşdirmək, bu hüququn özbaşına məhdudlaşdırılmasına imkanlar aça bilər. İfadə azadlığı haqqında başqalarının faydasız, önəmli olmayan saydıqları məzmunları ifadə etmək və yaymaq azadlığı da daxildir. Bununla yanaşı, hər bir hüquqda olduğu kimi, ifadə azadlığı hüququnun da çərçivəsi var, bu çərçivənin işığında bəzi məzmunlar ifadə azadlığı çərçivəsində, bəziləri isə həmin çərçivədən kənar hesab edilə bilər. Yalnız hər hansı məzmunun ifadə azadlığı hüququ çərçivəsinə daxil olub-olmadığını müəyyənləşdirdikdən sonra həmin məzmunun məhdudlaşdırıla bilən olub-olmadığını dəyərləndirmək olar. Məhz bu səbəbdən Avropa Məhkəməsi mətbuata yönəlik ön məhdudiyyətləri yolverilməz, Konvensiyanın 10-cu maddəsinə zidd sayır. Medianın yaydığı məzmuna yönəlik qanunda yuxarıda sadalanan şərtlər media üçün qabaqcadan məhdudiyyətlərin tətbiqi mahiyyətindədir. Doğrudur, nifrəti yayan, qızışdıran, təşviq edən və ya buna haqq qazandıran məzmunlar demokratik cəmiyyətlərdə məhdudiyyətlərə məruz qala bilər, ancaq belə məhdudiyyətlər hökuməti tənqid edən media və jurnalistləri susdurmaq üçün vasitə rolu oynamamalıdır.

“Media haqqında” qanunun müəyyən etdiyi şərtlərin həm də Avropa Məhkəməsinin məzmuna tətbiq edilən məhdudiyyətlərin ifadə azadlığına uyğunluğunun müəyyən edilməsi üçün tətbiq etdiyi 3 mərhələli yoxlama nəzəriyyəsinin işığında incələnməsi faydalıdır. İfadə azadlığına məhdudiyyətlər qanunda nəzərdə tutulmalıdır. Qanunda nəzərdə tutulma-nın özü ayrılıqda kifayət deyil, bunun özü də bir neçə kriteriayaya cavab verməlidir. Vətəndaşların davranışlarını düzənləməsi üçün kifayət qədər açıq tənzimləmə təqdim etməyən norma, qanun olaraq qəbul edilə bilməz. Vətəndaşlar konkret bir hərəkətin doğuracağı nəticələri ağlabatan həddə qabaqcadan görə bilməlidirlər. Məhdudiyyət nəzərdə tutan qanun həm də aydın olmalıdır, özbaşına tətbiqə imkan verməyən bir şəkildə yazılmalıdır. Məzmuna müdaxilələr həm də qanuni məqsəd daşımalıdır. Məhdud sayda olan və genişləndirilməsinə icazə verilməyən qanuni məqsədlər Konvensiyanın 10-cu maddəsinin 2-ci hissəsində göstərilib: “Bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın yaxud mənəviyyatın mühafizəsi üçün, digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən formallıqlara, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər”. Nəhayət, məzmuna müdaxiləni həm də təxirəsalınmaz sosial tələbat zəruri etməlidir. İstər qanundakı “faktlar obyektiv təqdim edilməlidir”, istər “əxlaqdankənar leksik məzmunlu söz və ifadələrdən istifadəyə yol verilməməlidir” şərti, istərsə də hər hansı digərinin mətni o qədər ümumi, mücərrəd və yayğındır ki, onları bu kriteriyaların işığında incələmək də asan deyil. Qanundakı 16 şərtin, eləcə də əlaqəli digər qanunlarda nəzərdə tutulan şərtlərin hər hansı biri bu testdən keçə bilən, “hüquqi müəyyənlik” prinsipinə cavab verən deyil.

Qanunun müəyyən etdiyi şərtlər media və jurnalistlərə çox ciddi çəkindirici təsir göstərmək, onları özünü senzuraya zorlamaq gücündə olmaqla yanaşı, həm də özbaşına tətbiqə geniş imkanlar açır. Qanunun tətbiqində bu, artıq özünü nümunələrdə göstərir. Manevr.az xəbər saytı ölkədəki əksər mediaların məktəblinin intihara cəhd etməsi haqda yaydığı xəbəri öz oxucuları ilə paylaşmışdı. Xəbər saytı həm də intihara cəhd olayının səbəblərinə toxunmuş, intihara cəhd edən məktəblinin hansısa məşhur internet oyununu oynadığını müəyyən etmiş, məqalədə olayın həmin oyunun təsiri altında baş verdiyi ifadə edilmişdi. Məqalə valideynlərin uşaqlarının internetdə davranışına daha ciddi nəzarət etməli olması tövsiyyəsi ilə bitirdi. Ancaq yerli məhkəmələr həmin medianı “intiharı təşviq edən məzmunu paylaşmağa görə” (“Media haqqında” qanun, maddə 14.1.16.) günahkar bilib, ona ağır inzibati cərimə cəzası verdilər.

**Media və jurnalistlərin vahid reyestrinin yaradılması ilə bağlı –** Qanun tənzimləyici dövlət orqanı tərəfindən Media Reyestri-nin yaradılmasını nəzərdə tutur. Qanuna görə, reyestrin yaradılmasının məqsədi Azərbaycanda fəaliyyət göstərən media və jurnalistlərə dair məlumatların sistemləşdirilməsidir. Azərbaycanda fəaliyyət göstərən media və jurnalistlərə dair məlumatların sistemləşdirilməsi məqsədilə xüsusi bir mexanizmin yaradılması ehtiyacı yoxdur. Çünki, jurnalistlər fərdi qaydada, medialar isə hüquqi şəxs olaraq, nüvafiq olaraq vergi qeydiyyatından keçiblər və onlar haqqında məlumatlar dövlət qurumlarında onsuz da mövcuddur. Bu reallığın işığında qanunda ifadə edilmiş məqsəd olduqca yayğın, aydın olmayan məqsəddir. Həm reyestrə daxil edilmək üçün qanunvericilikdə müəyyən edilmiş şərtlər, həm reyestrə daxil edilmiş media və jurnalistlər üçün qanunvericilikdə nəzərdə tutulan imtiyazlar, həm də 4 aydır davam edən reyestrin yaradılması prosesinin məzmunu göstərir ki, məqsəd yalnız qanunda göstərildiyi kimi “Azərbaycanda fəaliyyət göstərən media və jurnalistlərə dair məlumatların sistemləşdirilməsi” deyil. Reyestrin yaradılmasını həyata keçirən tənzimləyici dövlət orqanının rəsmi açıqlamalarına görə, fəaliyyət göstərən mediaların

reyestrə daxil olmaları üçün mart ayının sonuna qədər vaxtları var. Həmin vaxta qədər reyestrə daxil olmaq üçün müraciət etməyən medialaların fəaliyyətinin qanuni olub-olmamasına qiymət verilməsi üçün məhkəmələrdə iddia qaldırılacaq. Qeyd edilənlərin işığında aydın görünür ki, media və jurnalistlərin reyestrə daxil edilməsi, onların qanuni jurnalist fəaliyyəti ilə məşğul ola bilməsinin başlıca şərti olacaq. Qanunda da göstərildiyi kimi, yalnız reyestrdə oilan media və jurnalistlər akreditasiya imkanı qazanacaqlar. Belə yanaşma müxtəlif normativ aktlarda jurnalist haqlarına dəlalət edən imtiyaz, üstünlüklərin də məhz reyestrdə olan media və jurnalistlərə münasibətdə keçərli olacağını ifadə edir. Məsələn, Azərbaycanın cinayət qanunvericiliyi jurnalistin peşə fəaliyyətinə mane olmağa görə məsuliyyət müəyyən edir. Bundan başqa qanunvericilik jurnalistlərə öz qaynaqlarını açıqlamamaq haqqı verir. Qanunvericilik həmçinin, jurnalistlərin adi vətəndaşlarla müqayisidə ictimai məzmunlu rəsmi informasiyalara daha tez və rahat çatım haqlarını tanıyır. Reyestrdə olmayan media və jurnalistlərin bu haqlardan yararlanma imkanları ciddi suallar yardır. Üstəgəl, reyestrdə olmadan journalist fəaliyyəti ilə məşğul olmağın müxtəlif ittihamlara (məsələn: qanunsuz sahibkarlıq kimi) gətirib çıxarı biləcəyi ehtimalları da var. Qeyd etdiyimiz məzmunda tənzimləmə lisenziyalaşmaya bərabər tənzimləmədir və aydın şəkildə Avropa Şurası və BMT-nin standartları ilə qətiyyən bir araya sığmır.

**Gizli çəkilişlərdən istifadə ilə bağlı** – Qanun medianın gizli audio və video yazıları, foto çəkilişləri istifadə etməsinə, yaymasına yalnız 2 halda yol verir: (1) çəkilmiş şəxsin özünün yazılı razılığı, (2) məhkəmə qərarı. Yazılı razılıq və ya məhkəmə qərarı olmazsa, gizli audio, video çəkilişlərin və fotoşəkillərin yayılmasının bütün hallarda qadağan edilməsi Avropa Məhkəməsinin presedent hüququ ilə bir araya sığmır. Çünki, xüsusilə, ictimai fiqur sayılan şəxslərə münasibətdə ictimai maraqlar bəzi hallarda gizli görüntüləri əldə edilmiş şəxslərin şəxsi həyata hörmət hüququndan daha üstün ola bilər. Mosley Birləşmiş Krallığa qarşı işində AİHM ictimai xadim olan ərizəçinin gizli çəkilmiş görüntülərinin qəzetdə yayılması kontekstində 10-cu və 8-ci maddələri ilə qorunan hüquqlar arasında ədalətli balansı araşdırmışdı. Bu işdə ərizəçi ona aid gizli çəkilmiş görünütülərin ondan xəbərsiz qəzetdə yayılmasının onun 8-ci maddə ilə təminat altına alınan şəxsi həyata hörmət hüququnu pozmasından şikayət edirdi. 8-ci maddənin pozulmadığı qənaətində gələn AİHM, medianın yaymağı düşündüyü məhsullarla bağlı həmin məzmuna mövzu olan şəxslərə əvvəlcədən xəbər vermək məcburiyyətinin olmadığını vurğuladı. Bu qərarın işığında medianın hər dəfə gizli çəkilişlərin istifadə zamanı məhkəmə icazəsi üçün müraciət etməsi də mütənasib şərt kimi qəbul edilə bilməz.

**Qaynaqların qorunması ilə bağlı** – Qanunun jurnalist qaynaqlarının qorunmasını tam təmin etdiyini söyləmək olmaz. Qanuna görə, media, jurnalist öz qaynağını açıqlamağa məcbur edilə bilməz. Qaynaq yalnız məhkəmə qərarı olduqda açıqlanmalıdır. Media, jurnalistlərin məhkəmə qərarı ilə 3 halda öz qaynaqlarını açıqlamalı olduğu vurğulanır (Maddə 15.3): (1) insan həyatının müdafiəsi üçün; (2) ağır və xüsusilə ağır cinayətlərin qarşısını almaq üçün; (3) ağır və xüsusilə ağır cinayət törətməkdə təqsirləndirilən şəxsin müdafiəsi üçün. Jurnalistlərin öz qaynaqlarını hətta məhkəmələrin qərarları ilə açıqlamağa məcbur edilməsi belə söz azadlığına sözsüz ki, çox neqativ təsir gösrərir. Belə olduqda hamı, özəlliklə potensial qaynaqlar jurnalistlərin asanca polisin, digər hüquq mühafizə qurumlarının və ya məhkəmənin işinə cəlb edilə biləcəyini düşünəcək, onları mediaya həssas informasiyaları ötürməkdən çəkindirəcək. Cəmiyyətdə jurnalistlərin, medianın xüsusi xidmət, polis, istintaq qurumları kimi institusionallaşmış güclərin əlavə qolu və ya aləti olması təəssüratının yaranmasına yol verilməməsinin önlənməsi çox önəmlidir. Qaynaqlarla davranış çox həssas yanaşma tələb edir. Qaynaqların qorunması ilə bağlı örnək qərarlardan olan Qudvin Birləşmiş Krallığa qarşı işində Avropa Məhkəməsi vurğulayır ki, “qaynaqların qorunması demokratik cəmiyyətdə mətbuat azadlığı üçün çox önəmlidir və qaynağın açılması əmri bütün hallarda bu

azadlığı gerçəkləşdirməkdən çəkindirən potensiala malikdir. İctimai mənafelər üçün qaçılmaz ehtiyacla bəraətləndirilməyən belə tədbirlər Konvensiyanın 10-cu maddəsi ilə bir araya sığmır". Avropa Şurası Nazirlər Komitəsi "Jurnalistin qaynağının gizliliyini qorumaq haqqı" ilə bağlı (2000)7 saylı Tövsiyyələrində eyni mövqeni ortaya qoyur: "Qaynaqların qorunması jurnalist fəaliyyətinin həyata keçirilməsinin və media vasitələrinin azadlığını təmin etməyin əsas şərtidir. Jurnalistin qaynağını gizli tutmaq haqqı onun Konvensiyasının 10(2)-ci maddəsində göstərilən öhdəlikləri ilə müşayət olunmalıdır". Qanunda qaynaqların qorunması ilə bağlı istisnaların yer alması yolverilənidr, ancaq istisnaları nəzərdə tutan müddəanın mətnindən anlaşılan budur ki, jurnalistlər insan həyatının müdafiəsi və ya qanunda sadalanan başqa maraqlarla bağlı bütün işlərdə-mübahisələrdə özlərinin qaynaqlarını açıqlamalıdılar. Ancaq əslində qaynaqların açıqlanması haqda qərarlar bir qayda olaraq, ictimai mənafelər üçün qaçılmaz ehtiyacla əsaslandırılmalıdır.

## Qanunun tətbiqi

"Media haqqında" qanunun media reyestrinin yaradılmasını nəzərdə tutan müddəalarının Azərbaycan Konstitusiyasına uyğun tətbiq edildiyini söyləmək olmaz. Konstitusiyanın 149-cu maddəsinə görə, qanunlar Konstitusiyaya zidd olmamalıdır. Həmin maddəyə görə, fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil olunmur. "Media haqqında" qanunun media reyestri ilə bağlı müddəaları istisnasız olaraq, həm yeni yaranan, həm də qanun qəbul edilməzdən əvvəl təsis edilən, fəaliyyət göstərən medialara tətbiq edilir. Halbuki, bu müddəaların heç bir halda "hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən" məzmunda olduğunu söyləmək olmaz.

**Qanunun tətbiqinə başlanılmasının üzə çıxardığı problemlər: reyestrə daxil edilməyən media və jurnalistlər haqda -** Tənzimləyici dövlət orqanının qanunun tətbiqi ilə bağlı həyata keçirdiyi başlıca fəaliyyət media reyestrinin yaradılması ilə bağlıdır. Reyestr Azərbaycan Prezidentinin 26 sentyabr 2022-ci il tarixdə təsdiq etdiyi "Media Reyestrinin aparılması qaydaları"na əsasən yaradılmaqdadır. Həmin qaydalara görə, reyestrə daxil edilmiş məlumatların yalnız bir qismi açıq məlumat hesab edilir. Reyestrə daxil edilmiş mediaların adları və jurnalistlərin siyahısı ictimaiyyət üçün açıq olmalıdır. Mediaların sahibləri haqda bilgilərin açıq tutulması qaydalarda nəzərdə tutulmayıb. Tənzimləyici dövlət orqanı reyestrdəki açıq məlumatlara hər kəsin çatımını təmin etməlidir. Ancaq qaydaların bu tələbinə indiyədək əməl edilməyib. Hansı medianın və jurnalistin reyestrə daxil edilməsi barədə bilgilər qapalıdır. Bu, həm də informasiya açıqlığı ilə bağlı milli qanunvericiliyə uyğun deyil. Tənzimləyici dövlət orqanı informasiya sahibidir, belə informasiyaları vaxtaşırı cəmiyyətə özünün internet saytı üzərindən, yəni, sorğu olmadan açıqlamalıdır. Reyestrə daxil edilmiş media subyektlərinin və jurnalistlərin siyahısı ilə hamı tanış olmaq imkanında olmalıdır. Habelə, neçə medianın qeydiyyat üçün müraciət etməsi, neçəsinin qeydiyyata alınması, neçəsinin qeydiyyatından imtina olunması, imtina qərarlarının əsasları haqda bilgilər cəmiyyətlə bölüşülməlidir. Bunlar "İnformasiya əldə edilməsi haqda" qanunun tələbləridir. Ancaq tənzimləyici dövlət orqanının rəsmilərinin mediaya açıqlamaları istisna olmaqla bu qəbildən olan bilgilər qapalıdır. Tənzimləyici dövlət orqanının açıqlamasına görə, media reyestrinə 200-ə yaxın mürciət daxil olub. Müraciət edən 160-a yaxın media, eləcə də 180-ə yaxın jurnalist reyestrə daxil edilib.

Reyestrə daxil edilməsindən imtina olunanlar arasında həm onlayn, həm çap media subyektləri həm də fərdi jurnalistlər var. İmtina qərarlarının əksəriyyəti formal əsaslara söykənir, müraciət edən mediaların fəaliyyətinin davamlı olmaması (gündəlik azı 20 özəl xəbər yaymaq şərti) əsas göstərilir. Bu qərarların hamısı qanunsuzdur. Məsələn, "Mingəçevir işıqları" və "Gündəm-Xəbər" qəzetlərinin

media reyestrinə daxil edilməsindən imtina olunması müraciət edən medialarn fəaliyyətinin davamlı olmaması ilə izah edilib. Halbuki, “fəaliyyətin davamlı olması” şərti onlayn media subyektlərinə aiddir. Yeni qanunun çap medilarına münasibətdə müəyyən etdiyi şərtlər fərqlidir: “Ayda azı 1 (bir) dəfə davamlı olaraq yayımlanan, birdəfəlik tirajı 100 (yüz) nüsxədən çox olan, ildə azı 12 (on iki) dəfə çap olunan qəzetlər və ildə azı 2 (iki) dəfə çap olunan jurnal, toplu, bülleten və başqa nəşrlər dövri nəşrdir.” “Mingəçevir işıqları” və “Gündəm-Xəbər” onlayn media subyektlərinin reyestrə daxil edilməsindən də eyni əsasla imtina olunub. Onlarla yanaşı 24saat.org onlayn media subyektinin reyestrə daxil edilməsindən imtina olunmasını nəzərdə tutan qərar da “fəaliyyətin davamlı olmaması”nı əsas göstərib. İmtina qərarları bir neçə cümləlik şablondan ibarətdir, fəaliyyətin davamlı olub-olmaması konkret göstəricilərlə izah edilmir. Məsələn, 24saat.org onlayn media subyekti 2022-ci il ərzində yalnız 7 mindən artıq xəbər paylaşıb. Bu medianın rus, alman, ingilsi dildə versiyaları da mövcuddur. Ancaq tənzimləyici dövlət orqanının bu medianın fəaliyyətinin davamlı olmaması nəticəsinə necə gəldiyini izah etməyib. Bəzi jurnalistlərin fərdi qaydada reyestrə daxil edilməsi haqda müraciətlərinə də rədd cavabı verilib. Bu qərarlar da qanunsuzdur. Məsələn, Əziz Kərimov fotojurnalist, fotoreportyordur. 10 ildən artıqdır ki, bir çox yerli və xarici medialarla, xüsusilə, “Turan” Agentliyi ilə davamlı əməkdaşlıq edir. Kərimovun rəsmi müraciətinin qəbul edilməsindən şifahi imtina olunub. İmtina üçün 2 əsas göstərilib – “KİV redaksiyası ilə ştatlı jurnalist kimi minimum üçillik iş stajının olmaması” və “fotoqraf jurnalist hesab edilmir”... Başqa bir neçə jurnalistin fərdi qaydada reyestrə daxil edilməsindən isə onların jurnalistika stajının 3 ildən az olması əsası ilə imtina olunub. Halbuki, həmin jurnalistlər azı 10 ildir ki, bu peşə ilə məşğuldular və peşə fəaliyyətlərinə görə, müvafiq vergi və sığorta haqları öhdəliklərini davamlı icra ediblər.

Reyestrə daxil edilməyən media subyektlərinin əksəriyyəti tənzimləyici dövlət orqanının qərarını məhkəmə qaydasında mübahisələndiriblər. Bu şikayətlər üzrə hələlik yekun qərar açıqlanmayıb.

**Media reyestrinin formalaşdırlması başa çatandan sonra gözlənilən təhlükələr haqda -** Media haqqında qanunun açar maddələrinin əksəriyyəti dolaşıq, yayğındır, dövlət tənzimləməsi zamanı sui-istifadələrə geniş imkanlar açır. Qanunun müəyyən etdiyi ən nəzərəçarpan mürtəce tənzimləmələrdən biri olan vahid reyestrinin yaradılmasından sonra təsis edilmiş çap və onlayn media subyektlərinin hüquqi durumu qanunda aydın ifadə edilib: onlar fəaliyyətə başlamadan əvvəl tənzimləyici dövlət orqanına müraciət etməlidilər; müraciət etmədikləri halda tənzimləyici dövlət orqanı onların fəaliyyətinin qanuni olub-olmadığına qiymət verilməsi üçün məhkəmədə iddia qaldırır (“Media haqqında” qanun, Maddə 65, Çap mediası və onlayn media subyektlərinin fəaliyyətinin və media məhsullarının yayımlanmasının dayandırılması, habelə həmin subyektlərin fəaliyyətinə xitam verilməsi). Yeni qanun qüvvəyə minənədək fəaliyyət göstərən çap və onlayn media subyektlərinin hüquqi durumu isə qanunun mətninin işığında dumanlıdır. Qanuna görə, həmin medialar Media Reyestrinin formalaşdırılmağa başladığı tarixdən 6 ay müddətində tənzimləyici dövlət orqanına müraciət etməlidilər. Qanun reyestrə müraciət etməyən mediaların durumunu açıq saxlayır. Reyestr hələ formalaşdırlmayıb, qanunun tətbiqi ilə bağlı rəsmi açıqlamalardan belə nəticə çıxır ki, Qanunun 65-ci maddəsi bütün onlayn və çap medialarına tətbiq ediləcək. Tənzimləyici dövlət orqanı olan Medianın İnkişafı Agentliyininin açıqlaması: “Qanunda göstərilən 6 aylıq müddət bitəndən sonra biz onlar (çap və onlayn medialar) haqqında məsələni məhkəmə qarşısında qaldıracağıq. Onların fəaliyyətlərinin davam etdirilib-etdirilməməsi barədə qərarı isə məhkəmə verəcək”. Açıqlamadan aydın görünən budur ki, reyestr yaradıldıqdan sonra reyestrə düşmək üçün müraciət etməyən və müraciətləri rədd edilən mediaların fəaliyyətinin qanuni olub-olmadığına məhkəmə qərar verəcək.

*Media Hüququ Qrupu*

# AZƏRBAYCAN:

# Medianın hüquqi durumu

*2022, İLLİK ANALİZ*